

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

27 iyul 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 28 (3642)

# Şuşada görünən Azərbaycan həqiqətləri

## Dünya mediası Qarabağda yeni geosiyasi reallığın şahidi oldu

Ötən həftə keçirilən “4-cü Sənaye İnqilabı dövründə yeni media” mövzusunda I Şuşa Qlobal Media Forumu Azərbaycanın mövqeyinin beynəlxalq səviyyədə gündəmə gətirilməsi baxımından yeni fürsət yaratdı. Aparıcı media orqanları, agentliklər, televiziyalar, nüfuzlu nəşrlər bu forumla bağlı geniş materiallar, təhlillər hazırlayıb dünya ictimaiyyətinə çatdırırlar. Yəni dünya hazırda Azərbaycan həqiqətlərini görür, dinləyir...




### *Reallığı Prezident bəyan edir*

Şuşa şəhərində 49 ölkədən 150 xarici qonaq, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyinin, 12 beynəlxalq təşkilat və media qurumunun, 60 yerli medianın rəhbəri və nümayəndəsi iştirak edirdi.

“Heydər Əliyev İli” çərçivəsində və Azərbaycan Milli Mətbuatının 148-ci ildönümü münasibətilə təşkil edilən forumda Prezident İlham Əliyev bir daha Azərbaycan həqiqətlərini, regiondakı vəziyyəti dünyaya çatdırdı. Müxtəlif media qurumlarını təmsil edən jurnalistlərin suallarını cavablandıran dövlətimizin başçısı Azərbaycanın iqtisadi yüksəlişi, ölkəmizdəki diqqətəlayiq ictimai-siyasi sabitlik, müdafiə məsələlərini və starateji uğurlar gətirən siyasi, inzibati və xarici siyasət fəlsəfəsini bölüşdü.

Prezident İlham Əliyev əcnəbi jurnalistlərin suallarına verdiyi cavablarda mühüm qlobal və regional məsələlərə də toxundu. Türkiyənin İkinci Qarabağ müharibəsində Azərbaycanın yanında olması, rəsmi Bakının Rusiya ilə münasibətləri, Azərbaycanın Qoşulmama Hərakatına uğurlu sədirliyi, İkinci Qarabağ müharibəsində qazanılmış qələbədən sonra regionda yaranmış yeni reallıqlar, Ermənistanın mina terroru və sülh prosesi kimi məsələlərdən bəhs etdi.

Prezident çıxışında eyni zamanda Azərbaycanda davam edən media islahatlarının bu sahənin müasir standartlara uyğunlaşdırılmasına və qlobal tələblərə cavab verən kreativ ideyaların təşviqinə yol açdığını vurğulayıb.

### *Qətiyyətin təntənəsi*

Xarici media nümayəndələrinin Azərbaycanın Qarabağ iqtisadi rayonu ilə bağlı suallarına cavabında İlham Əliyev artıq hər kəsin Qarabağın Azərbaycan torpağı olduğunu qəbul etdiyini vurğuladı və bildirdi ki, Ermənistan ölkəmizə qarşı hər hansı ərazi iddialarından imtina etsə, sülh sazişinin ilin sonunadək imzalanması mümkündür.

Prezident eyni zamanda Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərimizlə bağlı prinsipial mövqeyini yenidən səsləndirdi, orada yaşayan ermənilərin gələcək taleyini aydınlaşdırdı, bununla separatçılara və havadarlarına konkret mesajlar verdi.

# Polis baş serjantı Vüsal Əbülfəz oğlu Quliyevin “İgidliyə görə” medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Öz həyatı təhlükə altında olduğu halda insan həyatını xilas etdiyinə görə polis baş serjantı Vüsal Əbülfəz oğlu Quliyev “İgidliyə görə” medalı ilə təltif edilsin (ölümündən sonra).

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 24 iyul 2023-cü il*

# Qarabağ dirçəlir

## Tikinti-quruculuq işləri geniş vüsət alır

Dövlət başçısı Şuşaya səfəri çərçivəsində iyulun 20-də Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Füzuli Beynəlxalq Hava Limanına qədər olan hissəsinin tikintisi ilə tanış olub, Xocalı rayonunun işğaldan azad edilmiş Çanaqçı və Sığnaq kəndlərində olub.

Bir gün sonra isə Şuşa rayonunun Daşaltı kəndinin yenidən qurulması ilə bağlı görüləcək işlərlə tanış olub, Daşaltı kəndində özəl investisiya hesabına inşa ediləcək yeni yaşayış kompleksinin və turizm obyektlərinin təməlini qoyub, 90 çarpayılıq Şuşa şəhər xəstəxanasında və Şuşa şəhər 960 şagird yerlik 1 nömrəli tam orta məktəbdə aparılan tikinti işləri ilə tanış olub.

# Daxili İşlər Nazirliyində qəbul

## Azərbaycan - Türkiyə əməkdaşlığı xalqlarımızın maraqlarına xidmət edir



***Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun dəvəti ilə Türkiyə Respublikası Jandarm Baş Komandanının müavini ordu generalı Ali Çardakçının başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.***

Əvvəlcə cənab Ali Çardakçı və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə tər çiçək dəstələri düzüb, ulu öndərin əziz xatirəsini ehtiramla yad ediblər.

Daha sonra Şəhidlər Xiyabanındakı "Əbədi məşəl" kompleksini və Türk Şəhidliyini ziyarət ediblər.

İyulun 20-də daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov ordu generalı Ali Çardakçının rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan nazir Azərbaycanın Türkiyə ilə əlaqələrinin hər zaman yüksələn xətlə inkişaf etdiyini, ulu öndər Heydər Əliyevin bu sahədəki xidmətlərini, onun “Bir millət, iki dövlət” siyasətinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini, dövlət başçılarının siyasi iradəsi və qarşılıqlı səfərləri nəticəsində dost və qardaş ölkələrimiz arasındakı münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu məmnunluqla xatırladıb.

*(Ardı 2-ci səhifədə)*

# Regional əlaqələr genişlənir

## Zəngəzur dəhlizi işə salınacaq

***Prezident İlham Əliyev Çinin “China Media Group” media korporasiyasına müsahibə verib. Müsahibədə müxtəlif qlobal problemlərə, iki dövlət arasında iqtisadi-siyasi münasibətlərə və digər vacib məsələlərə toxunulub.***

Azərbaycanla Çin arasında münasibətlərin ulu öndər Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə qoyulduğunu xatırladan Prezident ölkələrin qarşılıqlı faydalı əməkdaşlıq formatına və Çinin başlatdığı “Bir kəmər, bir yol” layihəsinin perspektivinə diqqət çəkib. Dövlət başçısı Azərbaycanın Şərqdən-Qərbə daşınan yüklər üçün Xəzər dənizində ən böyük ticarət donanmasına sahib olduğunu, paralel olaraq dəmir yolu infrastrukturunun müasirləşdirdiyini bildirib.

“Biz Azərbaycandan Türkiyə və Avropa istiqamətində gedən əlavə yol olacaq Zəngəzur dəhlizi üzərində çox fəal şəkildə çalışırıq. Azərbaycan ərazisində tikinti işlərinin təxminən 70 faizi artıq başa çatdırılıb. Beləliklə, Azərbaycan ərazisindən təkcə Bakı-Tbilisi-Qars kimi bir yol keçməyəcək, o cümlədən Zəngəzur dəhlizi işə salınacaq. Bir sözlə, bütün bunlar əlavə yüklər üçün digər imkanlar açacaq. Eyni zamanda, Azərbaycan ərazisindən daşımalar, həmçinin Gürcüstanın dəniz limanından keçəcək”,-deyə Prezident qeyd edib.

Ermənistanla aparılan sülh danışıqları ilə bağlı sualı cavablandıran dövlət başçısı bu ölkə rəsmilərinin Qarabağın Azərbaycanın tərkib hissəsi kimi tanıdıqlarını dilə gətirməklə birinci addımı atdıqlarını deyib. İndi isə, Ermənistan ikincini etməlidir, yəni şifahi bəyan etdiyi tanımanı imzalamalıdır. Prezident onu da qeyd edib ki, sülh müqaviləsi imzalansa Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilər hər hansı digər Azərbaycan vətəndaşı qədər bərabər hüquq və təhlükəsizlik zəmanətinə malik olacaqlar.

Azərbaycanın idman ölkəsi kimi tanıdılması siyasətinə də toxunan Prezident idmanda qazanılan qələbələrin vətənpərvərliyin artırılmasında mühüm amilinə çevrildiyini vuğrulayıb, həmçinin indiyədək keçirilən beynəlxalq yarışların Bakını böyük idman tədbirləri üçün beynəlxalq məkana çevirdiyini qeyd edib.

**Polis veteranları hesabat verdilər** — səhifə 2

**Qeyrəti öyüncə çevrilən polis** — səhifə 2

**Söhbət insan həyatından gedirsə...** — səhifə 3

**Əfsanəvi polis xəfiyyəsi – Ejen Fransua Vidokun memuarları** — səhifə 4

# RESPUBLİKA XƏBƏRLƏRİ

## Xarici işlər nazirləri görüşüblər

İyulun 25-də Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasına işgüzar səfəri çərçivəsində Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov ilə ikitərəfli, daha sonra isə Rusiya xarici işlər naziri və Ermənistan xarici işlər naziri Ararat Mirzoyan ilə üçtərəfli görüşlər keçirib.

Görüşlərdə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması prosesi müzakirə olunub.

Nazir Ceyhun Bayramov bölgədə mövcud vəziyyət, Azərbaycan tərəfindən regionda sülh və təhlükəsizliyin bərqərar olunması istiqamətində atılan addımlar əleyhinə Ermənistan tərəfindən törədilən hədə və qeyri-qanuni fəaliyyətlər, habelə təyyarələrin uçuşuna törədilən maneələr daxil, hərbi təxribatlar barədə ölkəmizin mövqeyini bir daha diqqətə çatdırıb.

## Laçına qayıdış davam edir

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir.

İyulun 25-də Laçına qayıdışın səkkizinci köç prosesi gerçəkləşib. Yenidən qurulan Laçın şəhəri bu dəfə 19 ailəyə qucaq açıb və daha 89 nəfər laçınlı yurduna qovuşub.

Bununla da Laçın şəhərində 152 ailə, yəni, 591 nəfərin daimi məskunlaşması təmin edilib.

## Hərbçilərə əlillik təyin edilib

Qırx dörd günlük Vətən müharibəsində yaralanmış və müalicə kursları tamamlanmış 4 minədək hərbi qulluqçuya əlillik təyin edilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, artıq həmin kateqoriyadan olan 3967 hərbi qulluqçuya ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik təyin olunub.

Əlillik təyin edildikdən sonra onlara e-sistem tərəfindən, proaktiv qaydada əlilliyə görə aylıq sosial ödənişlər (Prezidentin təqaüdü, pensiya, müavinət) təyin olunub, habelə birdəfəlik sığorta ödənişləri verilib.

## Parklanma yerləri tənzimlənir

Nazirlər Kabineti "Nəqliyyat vasitələrinin parklanmasına görə ödənişin məbləği"nin təsdiq edilməsi haqqında qərar qəbul edib. Şəhər mərkəzi ilə kənar yaşayış məntəqələrində yerləşən parklanma yerlərinə görə qiymətlərin diversifikasiyasını ehtiva edən qərara əsasən Bakı şəhəri üzrə 5 parklanma zonası müəyyən edilib və ödənişlər hər zonaya uyğun tətbiq edilir.

4-cü parklanma zonasına daxil edilən ərazilərdə parklanma ödənişsizdir. Eyni zamanda qaydalara əsasən, digər zonalarda nəqliyyat vasitələrinin parklanması üçün saat 22:00-dan saat 07:00-dək, eləcə də həftənin bazar günləri ödəniş tələb olunmur.

## DOST xidmətlərinin sayı artır

Ölkəmizdə uşaqların valideyn himayəsindən məhrum olmasının qarşısının alınması və onların hüquqlarının müdafiəsinin gücləndirilməsi sahəsində aparılan çoxşaxəli sosial islahatlar fonunda qüvvədə olan qanunvericiliyə yeni sosial institut olan "Himayədar ailə" konsepsiyasının daxil edilməsi ilə bu sahədə yeni mərhələyə keçidin təməli qoyulub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, "DOST" mərkəzlərində göstərilən xidmətlərin siyahısı"na əlavə edilmiş yeni 5 xidmət nəzərə alınmaqla xidmətlərin sayı 159-a çatdırılıb.

# Daxili İşlər Nazirliyində qəbul

## Azərbaycan - Türkiyə əməkdaşlığı xalqlarımızın maraqlarına xidmət edir

*(Əvvəli 1-ci səhifədə)*

Nazir rəhbərlik etdiyi qurumun Türkiyənin Daxili İşlər Nazirliyi, o cümlədən Jandarm Baş Komandanlığı ilə münasibətlərin əməkdaşlığın genişləndirilməsinə böyük önəm verildiyini, Daxili Qoşunların formalaşmasında, ən müasir tələblərə cavab verən quruma çevrilməsində, şəxsi heyətin peşəkarlığının daha da yüksəldilməsində Türkiyə Jandarm Baş Komandanlığının böyük xidməti olduğunu xüsusi vurğulayaraq buna görə təşəkkürünü bildirib.

Səmimi qəbula və ətraflı məlumata görə minnətdarlığını bildirən ordu generalı Ali Çardakçı Azərbaycana səfərindən, Bakının dünyanın ən gözəl paytaxtlarından, ən təhlükəsiz şəhərlərindən biri olmasından, ölkəmizin dinamik, sürətli inkişafından, eyni zamanda, Daxili Qoşunların yüksək peşəkarlığa və döyüş qabiliyyətinə malik mobil bir quruma çevrilməsindən məmnun olduğunu bildirib.

O, iki ölkənin müvafiq orqanları arasındakı faydalı işbirliyini yüksək qiymətləndirib, "Bir millət, iki dövlət" olaraq Türkiyənin hər zaman Azərbaycanın yanında yer aldığını, ordusunun, Daxili Qoşunlarının inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini, əməkdaşlığın, təcrübə mübadiləsinin qardaş xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət etdiyini vurğulayıb.



Görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlər müzakirə edilib.

Daxili Qoşunların Baş İdarəsində daxili işlər nazirinin müavini - Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədovun ordu generalı Ali Çardakçının rəhbərlik etdiyi nümayəndə heyəti ilə də görüşü olub.

General-leytenant Şahin Məmmədov Türkiyə Jandarm Baş Komandanlığı ilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunları arasında dostluq və hərbi əməkdaşlıq münasibətlərinin daha da genişləndiyini qeyd edib, qonaqlara Qoşunların Vətən müharibəsindəki döyüş yolu və inkişafı barədə ətraflı məlumat verib.

Səfər çərçivəsində dost və qardaş ölkənin nümayəndə heyəti Daxili Qoşunların Ali Hərbi Məktəbində təlim-tədrisin təşkili, kursantlar üçün yaradılmış şərait, o cümlədən Bakı şəhərində yerləşən "N" saylı hərbi hissələrlə tanış olublar.

# Polis veteranları hesabat verdilər

## Veteranların təcrübəsindən səmərəli istifadə olunur

**Bu il onların iştirakı ilə 2617 cinayətin üstü açılıb, təhsil müəssisələrində 192, gənc əməkdaşlarla 209 görüş keçirilib.**

Bakı şəhər BPİ-də ötən həftə tabeli polis orqanları Veteranlar şuralarının bu ilin altı ayının yekunlarına həsr olunan iclası keçirilib.

İclasda Bakı şəhər BPİ rəisinin şəxsi heyətlə iş üzrə böyük köməkçisi, polis polkovniki Oqtay Süleymanlı, DİN Veteranlar Birliyinin sədri Fərhad Süleymanov, şura sədrləri və veteranlar iştirak edib.

Ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbçilərimizin və vəfat etmiş şura üzvlərinin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsindən sonra iclas açıq elan olunub.

Polis polkovniki Oqtay Süleymanlı cinayətkarlığın profilaktikası və baş vermiş cinayətlərin açılmasında, gənc əməkdaşlarla hamilik işində, əhali arasında hüquqi təbliğatın aparılmasında veteranların iştirakından danışıb. Bildirib ki, onların təcrübəsindən səmərəli istifadə edilməsini həm DİN, həm də Baş İdarə rəhbərliyi daim diqqət mərkəzində saxlayır.

Sonra Bakı şəhər BPİ Veteranlar Şurasının sədri Emin Məmmədov cari ilin 6 ayı ərzində veteranların gördüyü işlər barədə hesabat verib.

Qeyd edilib ki, göstərilən dövr ərzində polis veteranlarının köməyi ilə 2617 cinayətin üstü açılıb ki, ötən ilin müvafiq dövründə bu rəqəm 2540 olub. Narkomaniya və erkən nikaha qarşı təhsil müəssisələrində 192 görüş keçirən veteranlar yerli polis orqanlarında nizam-intizamın qorunub saxlanılması məqsədilə gənc əməkdaşlarla 209 görüş keçiriblər. Polisin nüfuzunun artırılması, əhali arasında vətənpərvərlik hisslərinin aşılanması və hüquq qaydasının təminində polisə dəstək verilməsi məqsədilə vətəndaşlarla 153 görüş təşkil olunub.

Hesabat məruzəsindən sonra təşkilati məsələlərə baxılıb. Veteranlar Şurasının sədri, müavini, katibi və yeni üzvləri seçilib.

Şuranın yeni seçilmiş tərkibini təbrik edən F.Süleymanov veteranlara bundan sonra da öz təcrübələrini, bilik və bacarıqlarını əməkdaşlarla bölüşməyi, qarşıya çıxan problemlərin həllində daha yaxından iştirak etməyi tövsiyə edib.

# Qeyrəti öyüncə çevrilən polis

## Xilaskarlıq zirvəsində qazanılmış əbədiyyət

**Faciəli xəbər ildırım sürətilə bütün Naxçıvana yayıldı. Bir saat keçməmiş bütün ölkə elektron media vasitəsilə Babək rayonunun Uzunoba gölündə baş vermiş faciədən – polis baş serjantı Vüsal Əbülfəz oğlu Quliyevin suda batan 13 yaşlı oğlanı xilas etməsindən, uşağın anası Səadət Aslanlıya kömək göstərərkən onunla birlikdə həlak olmasından xəbər tutdu.**

Qeyrətli polis işçisinin igidliyi xalqımıza kədər, hüzn qarışıq öyünc və minnətdarlıq düyğuları da yaşatdı. Hamı bir daha əmin oldu ki, dinc günlərdə qayda-qanunun keşiyində duran, əmin-amanlığı qoruyan, düşmənlə savaşda ön cəbhədə vuruşan Azərbaycan polisinin təmsilçiləri mülki fəlakət anında da insanları xilas etmək üçün həyatından keçməyə belə hazırdır.

Prezident İlham Əliyev suda boğulan soydaşlarımızı xilas edərkən gösrərdiyi igidliyə – öz həyatı təhlükə altında olduğu halda insan həyatını xilas etdiyinə görə polis baş serjantı Vüsal Əbülfəz oğlu Quliyevi ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif etdi. Bu xəbər isə bir daha göstərdi ki, Azərbaycan dövləti və onun rəhbəri hər hansı bir ictimai fərqlənməni, fədakarlığı, insanların həyatı naminə xilaskarlığı yüksək qiymətləndirir, belə halları geniş təşviq edir.



Naxçıvanda isə Vüsal Quliyevin hünəri, igidliklə həlak olması 3 gündür ki, muxtar respublikanın ictimai həyatına hakim kəsilib. Adamlar bu faciəli hekayədən danışır, bir-birilə kədərlərini bölüşür, qeyrətli polis işçisinin ruhuna rəhmət diləyirlər. Naxçıvan MR Daxili İşlər Nazirliyinin qürur duyduğu xilaskar işçisi Vüsal Quliyevin doğulub dəfn edildiyi Cəhri kəndində təşkil etdiyi yas mərasiminə gəlib-gedənlərin isə ardı-arası kəsilmir, sayı-hesabı bilinmir. Mərhumun 3 mərasimi isə daha izdihamlı idi.

Vüsalın qohum-əqrabası, dost-tanışları, xidmət yoldaşları ilə ani söhbət də onun gözəl insan, nümunəvi polis işçisi, başqalarına kömək etməkdən məmnunluq duyan bir soydaşımız olduğunu üstüstə isbatlayırdı. Ailə üzvləri üçünsə bu acı həqiqəti qəbul etmək çətin olsa da, el yanğısı, ölkə kədəri, şərəfli aqibət onlara toxtaxlıq, dözüm gətirir. Ölkə Prezidentinin sərəncamı isə Vüsalın ailəsinə də, el-obasına da baş ucalığı duyğuları yaşadır.

**Hamı bir daha əmin oldu ki, dinc günlərdə qayda-qanunun keşiyində duran, əmin-amanlığı qoruyan, düşmənlə savaşda ön cəbhədə vuruşan Azərbaycan polisinin təmsilçiləri mülki fəlakət anında da insanları xilas etmək üçün həyatından keçməyə belə hazırdır.**

Yas mərasiminə gələnlərin söhbətinin baş mövzusu da Vüsalın igidliyi və onun xilaskarlığına dövlət başçısının həssas və qədirbilən münasibəti idi.

Belə hüznlü günlərdə dünyasını dəyişmiş insanın ailə üzvləri ilə ünsiyyət qurmaq çətin olsa da, Vüsal Quliyevin atası Əbülfəz Quliyevə başsağlığı verib duyğu-düşüncələrini qeydə aldıq. Əbülfəz müəllim dedi ki, 3 övladı var – bir qız, iki oğlan:

– Vüsal ailənin ikinci övladı idi. Hərbi xidmətdən sonra uzun illər idi ki, polis orqanlarında işləyirdi. 41 yaşı var idi. İndiyədək daim çalışqanlığı, dürüstlüyü, xeyirxahlığı ilə hər kəsin hörmətini qazanmışdı. Bəlkə də elə buna görədir ki, bir müddət əvvəl xidmət müddətinin tamam olmasına baxmayaraq, rəhbərlik işini davam etdirməsini lazım bilmişdi. Sən demə, xidmət işdən ayrılmağı bu cür olacaqmış...

Əbülfəz müəllim qəhərini boğub bildirdi ki, ağır xəbəri Bakıda eşidib:

– Həmin vaxt Vüsalın iki oğlu da mənim yanımda idi. Naxçıvana necə gəldiyimi xatırlamıram. Ancaq sağ olsun Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinin rəhbərliyi. Hadisədən sonra dərhal bütün hazırlıq işlərini ən yüksək səviyyədə təşkil edərək dərdimizə yaxından şərik oldular. 3 gündür ki, yas mərasimindən ayaqları kəsilmir.

Nazirlikdən nə lazımdırsa edirlər. Məzarının üstünü götürməyə də hazırlıq aparırlar. Elə məclisdəkilərin çoxu da polis əməkdaşlarıdır. Hər kəs Vüsalın qorxmazlığından, xeyirxahlığından, hadisə baş verən zaman heç nəyə baxmayaraq, digərlərinin həyatını qurtarmaq üçün necə riskə atıldığından danışır. Həmin gün Vüsal işdə deyilmiş. Amma buna baxmayaraq, o, bu hərəkəti ilə çevik, fədakar polis işçisi nümunəsi göstərib. Sağ olsun Prezidentimiz. Onun oğlumun hünərinə verdiyi yüksək qiymət ailəmizə təsəlli, həmyerlilərə öyünc gətirir.

Qardaşı haqqında danışmaq Vüqara çətin olsa da, hünəri ölkəni dolaşan, bütün xalqımızın yas tutduğu, öyündüyü polis qardaşı ilə qürur duyduğunu dedi:

– Prezident İlham Əliyevin sərəncamı ilə qardaşımın "İgidliyə görə" medalı ilə təltif olunması ailəmiz üçün bir fəxarətdir. Buna görə dövlətimizə minnətdarıq.

...Mərasim evindən ayrılanda qəhrəman polisimizin atası Əbülfəz Quliyevlə sağollaşıb dedik:

– Başınız sağ olsun, dünənədək Vüsal sizin oğlunuz idi. İndi hünəri ilə Vətən oğlu olduğunu sübuta yetirdi. Vüsal kimi oğulları olan bu məmləkət hər zaman qəhrəmanlar yetirəcək. O qəhrəmanlar ki, lazım olan anda xalqımızın, dövlətimizin xilaskarlarına çevrilməyi bacarırlar. Elə torpaqlarımızı Vətən edən də belə oğullarımızdır.

*Səbuhi HƏSƏNOV*
*Naxçıvan – Cəhri*

# Qabaqlayıcı tədbirlər görülür

## İstirahət zonalarına əlavə polis naryadları cəlb olunub








Hava şəraiti ilə əlaqədar əhalinin çimərliklərə, istirahət zonalarına kütləvi hərəkəti nəzərə alınaraq, polis əməkdaşlarının fasiləsiz xidməti təşkil edilib.

İctimai qaydanın və ictimai təhlükəsizliyin təminatı məqsədilə xidmətə əlavə canlı qüvvə və xidməti avtomobillər çıxarılıb.

Respublikanın bütün turizm zonalarına - çimərliklərə və digər istiqamətlər üzrə hərəkətin fasiləsizliyi təmin olunmaqla naryad qrupları təhkim olunub. Köməyə ehtiyacı olan şəxslərə çağırışlar üzrə operativ köməkliklər göstərilir, müvafiq dövlət qurumları ilə əlaqəli fəaliyyət icra edilir.

*Zeyni Hüseynov,*
*polis baş leytenantı*

# Qan lazımsa qan, can lazımsa can!

## Polisin daha bir xilaskarlıq örnəyi

Qazaxda polislər qan itirməkdən ölmək üzrə olan qadını xilas ediblər.

Ağstafa rayon sakini olan qadın hamiləliyində yaranan problem ilə bağlı kəskin qan itirərək Qazax Rayon Mərkəzi Xəstəxanasına çatdırılıb.

Xəstədə qan azlığı, təzyiqin get-gedə aşağı düşməsi halı qeydə alınıb. Gecə saat 01:30 radələrində dərhal əməliyyata alınan vətəndaşın həyatını xilas etmək üçün təcili qan tələbatını ödəmək lazım gəlib.

Lakin Gəncə şəhərində yerləşən Qan Bankından qanın gəlmə vaxtı gecikməyə səbəb olacağından ümid yeri kimi Qazax Rayon Polis Şöbəsinə müraciət olunub. Məlumat daxil olandan bir neçə dəqiqə sonra polis əməkdaşları özlərini xəstəxanaya çatdıraraq qan veriblər.

Beləliklə, həkimlərin tibbi müdaxiləsi və həmkarlarımızın vaxtında köməyə çatması sayəsində qadının həyatını xilas etmək mümkün olub.

# Söhbət insan həyatından gedirsə...

## Meşədə itkin düşən turistlərin tapılmasında polis əməkdaşları fədakarlıq ediblər

Zaqatalada şəlaləyə gedərkən itkin düşmüş Bakı şəhər sakinləri tapılaraq xilas ediliblər.

Rayonun dağlıq-meşəlik ərazisində yolu azan və köməksiz vəziyyətdə qalan Bakı şəhər sakinləri Əli Əlizadə və Əbdül Rzayev Zaqatala Rayon Polis Şöbəsinin, eləcə də digər aidiyyəti qurumların əməkdaşlarının birgə iştirakı ilə çətin relyefli dağlıq ərazidən təxliyə olunublar.

Onlar polis əməkdaşlarının iştirakı ilə xəstəxanaya aparılıb və tibbi müayinədən keçiriliblər.



Qeyd edək ki, çay ilə hərəkət edərkən dərədə çıxılmaz vəziyyətdə qalan turistlər Fövqəladə Hallar Nazirliyi və Daxili İşlər Nazirliyinə zənglə məlumat veriblər. Onların axtarışlarına Zaqatala Rayon Polis Şöbəsi, Fövqəladə Hallar Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları, eləcə də ərazini tanıyan yerli sakinlər cəlb olunub. Keçirilən təxirəsalınmaz tədbirlərlə həmin şəxslərin yeri müəyyən edilib.

Ə.Rzayev və Ə.Əlizadə həyatlarını xilas etdikləri üçün polis və digər adları sadalanan qurumların əməkdaşlarına minnətdarlıqlarını bildiriblər.

Axtarışlarda iştirak edən Şöbə əməkdaşları – İlqar Rzayev, Emil Əliyev, Nurlan İbrahimov, Məhəmməd Vəliyev, Qalib İsrafilli və Əkrəm Hacıyev bildiriblər ki, dağlıq ərazilərdə hərəkət etmək, xüsusilə də gecə saatlarında olduqca çətin və təhlükəli idi. Buna baxmayaraq söhbət insan həyatından getdiyinə görə istənilən təhlükəni gözə almağa hazır olublar.

*Mahir Mənsimov,*
*polis kapitanı*

# Hərbi sürücülər üçün təlim

## Heyətin peşə bilikləri artırılır

Azərbaycan Ordusunun Təlim-Tədris Mərkəzində Bakı və Sumqayıt qarnizonunda yerləşən hərbi hissələrin sürücülərinə, avtomobil xidməti rəislərinə yol hərəkəti qaydaları ilə bağlı təlim keçirilib.

Yol hərəkətinin təhlükəsizliyinin təmini ilə bağlı hərbi heyətin peşə biliklərinin artırılması məqsədilə keçirilən məşğələdə Müdafiə Nazirliyi, Hərbi Avtomobil Müfəttişliyi və Bakı Şəhər BPİ Dövlət Yol Polisi İdarəsinin əməkdaşları təlimatçı qismində iştirak ediblər.

Təlimçi əməkdaşlar hərbi nəqliyyat vasitələrinin istənilən hava şəraitində, müxtəlif relyefli ərazilərdə təhlükəsiz idarə edilməsi, yol hərəkəti qaydaları, hərəkət üstünlüyündə olan nəqliyyat vasitələri və hərbi kalonların müşayiəti kimi mövzularla bağlı çıxışlar ediblər.

# Narkotik qaçaqmalçılığının qarşısı alınıb

## Astara rayonunda 46 kiloqram narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb

Lənkəran regional qrupumuzdan verilən məlumata görə, Astara Rayon Polis Şöbəsinin əməkdaşlarının rayonun Sım kəndi ərazisində həyata keçirdikləri uğurlu əməliyyat tədbiri zamanı narkotik vasitələrin qanunsuz dövriyyəsini təşkil edən Lənkəran şəhər sakini Elxan Həsənov saxlanılıb. Onun idarə etdiyi avtomobilin yük yerinə baxış zamanı 46 kiloqram - 20 kiloqram tiryək, 20 kiloqram marixuana, beş kiloqram heroin, bir kiloqram metamfetamin, 2000 ədəd metadon həbi aşkar olunaraq götürülüb.



Araşdırma zamanı E.Həsənovun narkotik vasitələrin qanunsuz dövriyyəsini şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşı vasitəsilə təşkil etdiyi müəyyən edilib.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsilə cinayət işi başlanılıb, E.Həsənov barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Məhəllələr abadlaşdırılır, uşaqlar maarifləndirilir

## Polis əməkdaşları uşaqlara yol-hərəkəti qaydaları haqqında məlumat veriblər



Bakı şəhər BPİ Dövlət Yol Polisi İdarəsi və Yasamal rayon İcra Hakimiyyəti "Abad məhəllə" layihəsi çərçivəsində birgə tədbirlər keçirirlər.

Layihə əsasında artıq 6 məhəllə abadlaşdırılıb. Yollara piyada keçidləri, sürət həddinin aşağı salınması üçün xüsusi manevələr quraşdırılıb. Üstəlik avtomobillər üçün parklanma yerləri ayrılıb və uşaqların asudə vaxtlarını səmərəli keçirmələri üçün oyun qurğuları, söhbətgahlar, idman alətləri və bir çox avadanlıqlar sakinlərin istifadəsinə verilib.

Aparılan tədbirlər zamanı Bakı şəhər DYPİ və Yasamal Rayon DYPŞ-nin əməkdaşları uşaqlara yol-hərəkəti qaydaları haqqında məlumat verib, maarifləndirici təlim keçiblər.

Sakinlərin rahatlığı üçün "IDEA" İctimai Birliyi tərəfindən təşkil olunmuş "Abad məhəllə" layihəsi çərçivəsində belə tədbirlərin davam etdirilməsi nəzərdə tutulub.

*"Polis"*

# Polisə təşəkkür edirlər

## Vətəndaş məktubları xidmətdən məmnunluğu ifadə edir

***"Bir ana kimi övladımın gələcəyinin əmin əllərdə olduğuna sevinirəm. Bilirəm ki, polislərimizin apardığı mübarizə balalarımızı "ağ ölüm"ə sürükləyənlərin tez bir zamanda kökünü kəsəcək".***

Daxil olan hər bir məktub vətəndaşlarımızın polisə bəslədikləri etibardan, etimaddan yaranır. DİN rəhbərliyi tərəfindən polisin fəaliyyətinin vətəndaşların problemlərinin həllinə yönəlməsi, sabitliyin təmin edilməsi, cinayətkarlıqla, o cümlədən narkotik vasitələrin dövriyyəsinə narkomanlığa qarşı kəsərli mübarizənin uğurla davam etdirilməsi bu inamı daha da gücləndirir.

Könül Qocayeva məktubunda bildirir ki: "Azərbaycan Polisi narkomaniya ilə qətiyyətli mübarizə aparır. Bir ana kimi övladımın gələcəyinin əmin əllərdə olduğuna sevinirəm. Bilirəm ki, polislərimizin apardığı mübarizə balalarımızı "ağ ölüm"ə sürükləyənlərin tez bir zamanda kökünü kəsəcək. DİN rəhbərliyi başda olmaqla, ölkəmizin dörd bir tərəfində inamla çalışan və xalqımızın qeydinə qalan, hər fədakarlığa hazır olan, gecəsini gündüzünə qataraq 24 saat xidmət aparan Bakı Şəhər Baş Polis İdarəsinin şəxsi heyətinə bu işdə uğurlar arzulayır və minnətdarlığımı bildirirəm".



Digər məktubu Elvar İbadov yazır: "Sumqayıt Şəhər Polis İdarəsinin əməkdaşlarına minnətdaram. Vətəndaşların müraciətinə həssas yanaşmaları ilə bərabər, onları səbrlə dinləyir edilən müraciətə dərhal reaksiya verərək operativ tədbirlər görürlər. Mən polislərimizin yaşadığımız ərazidə narkomaniya və narkotiklərin satışı ilə məşğul olanlara qarşı qətiyyətli mübarizəsini də dəstəkləyirəm. Sağ olsunlar".

"Rayonumuzda narkotik maddələrin satışı ilə məşğul olanlarla mübarizə aparan Abşeron Rayon Polis İdarəsinin əməkdaşlarının operativ əməliyyatlarının uğurlu olması bizləri sevindirir. Bu günlərdə Abşeron RPİ-nin Mehdiabad Polis Bölməsinin əməkdaşlarının Digah qəsəbəsində apardığı uğurlu əməliyyat buna misaldır. Xidməti vəzifə borclarını layiqincə yerinə yetirdiklərinə, asayişin təmin olunmasında, cinayətkarlıqla və narkomaniyaya qarşı mübarizədə fəal iştiraklarına görə təşəkkürümü bildirirəm". Bu sətrlər Bakı şəhər sakini Nüsrət Ələkbərovun məktubundandır.

İkinci Qarabağ Müharibəsinin iştirakçıları olan Azad Sultanov və Əlizaman Məmmədov cinayətkarlığa qarşı görülən tədbirlərdən razılıqlarını bildirirlər. Məktublarda yazılır: "Suraxanı Rayon Polis İdarəsinin əməkdaşlarının bu yöndə apardığı qətiyyətli mübarizə təqdirəlayiqdir. Azərbaycan Polisi bu gün cinayətkarlığın bütün təzahürü, o cümlədən narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizədə öz prinsipial mövqeyini nümayiş etdirir. Asayişin təmin olunması üçün gecəli-gündüzlü layiqli xidmət aparan hər bir polis əməkdaşına minnətdarıq".

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

# Ekologiyanı çirkləndirənlər cərimələnib

## Məsul şəxslər inzibati məsuliyyətə cəlb edilib

Sanitariya-gigiyena qaydalarının pozulması hallarının qarşısının alınması, ətraf mühitin mühafizəsinin təmin edilməsi məqsədilə Qazax Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən növbəti tədbir keçirilib.

Gəncə regional qrupumuzdan verilən məlumata görə, keçirilən nəzarət tədbiri zamanı rayonun Daş Salahlı və Çaylı kəndi ərazisində sənaye və məişət tullantılarının qalaqlanması, eləcə də yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi faktları aşkar olunub.

Aşkar olunmuş faktlarla bağlı həmin kəndlərin bələdiyyə sədrləri barəsində İnzibati Xətalar Məcəlləsinin 271-ci (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi) maddəsi ilə protokol tərtib olunub və onlar inzibati məsuliyyətə cəlb ediliblər.

# Əfsanəvi polis xəfiyyəsi – Ejen Fransua Vidokun memuarları

## Vidokun təcrübəyə əsaslanan qeydləri və tövsiyələri tərbiyəvi mahiyyət daşımaqla, əməliyyat-axtarış işinin, kriminalistikanın konstitusiyasıdır.



***1828-cı ildə Vidokun elmi-fəlsəfi memuar xarakterli "Parisin sirləri", "Oğru: əxlaq və psixologiya" əsərləri Onore de Balzakın yazdığı ön sözlə nəşr olunub. Təhlil və araşdırmalara görə, Vidokun təcrübəyə əsaslanan qeydləri və tövsiyələri tərbiyəvi mahiyyət daşımaqla, əməliyyat-axtarış işinin, kriminalistikanın konstitusiyasıdır. Bunu nəzərə alaraq, hələ bir neçə il əvvəl Vidokun "Parisin sirləri", "Oğru: əxlaq və psixologiya" əsərlərindən parçaların ilk dəfə Azərbaycan dilinə tərcüməsinə başlamışdıq. Üzərindən uzun illər, onilliklər örtsə də, bu "konstitusiya" qüvvədən düşmür. Odur ki, yenidən və daha təfsilatlı tərcümə ilə əfsanəvi polis xəfiyyəsi Vidokun memuarlarına qayıdırıq.***

Jan Valjan fransız ədəbiyyatında Viktor Hüqonun "Səfillər" əsərində yaratdığı obraz yox, tarixi şəxsiyyət Ejen Fransua Vidokdur. Vidok qatı cinayətkar olmaqla, dueldə adam öldürməkdən zövq alan, dövrünün ən məşhur oğrusu olub, tarixi olmayan kriminalistika və detektivin əsaslarını yaratmaqla dünyaya zəngin təcrübəyə əsaslanan irs bəxş edib. Öz təcrübəsi ilə sübut edib ki, hətta ən qatı cinayətkar belə islah oluna, cəmiyyətin faydalı üzvünə çevrilə bilər.

1775-ci il təvəllüdlü və 1857-ci ildə dünyasını dəyişən E.Vidokun həyatı 160 ildən artıqdır ki, əməliyyat-axtarış işinin öyrənilməsində və tətbiqində tədris olunur. Parisin cinayətkar aləminin bütün sirlərini bəşəriyyətə təqdim edən Vidokun cinayətin tərkibi, motivi, cinayətkarlığın fəlsəfəsi, psixologiyası, şübhəli şəxsi müəyyən etmə, agentura, rezident işinin təşkili və aparılması, cəza, kriminalistika ilə bağlı xeyli tövsiyələri var ki, bütün dünya onun təcrübəsindən istifadə edir. Heç təsadüfi deyil ki, o, dünyada "əməliyyat-axtarış işi" və "istintaq-əməliyyat işi"nin, "kriminalistika"nın atası hesab olunur.

### Cinayətkar davranışın psixologiyası

Asayişin mühafizəsi hamını maraqlandırır. Həm də etibarlı mühafizəsi görünən polislə yanaşı, görünməyən polisin fəaliyyətindən daha çox asılıdır. Səbəblər var. Çünki hər bir cinayətkar çalışır ki, maskalanmaqla özünü cəza təhdidindən yayındıra bilsin. Ona görə də gizli polisin olması, cinayətkarların içərisinə sızmaqla fəaliyyəti bütün dövrlərdə səmərəli olub. Bunu cinayətkarlar da yaxşı bilir. Polisin gizli agenti – xəfiyyə olmaq, cəmiyyətə faydalı insan kimi xeyir vermək mənim cinayətkar aləmdən xilas yolum idi. Bunu duyurdum və bilirdim. Çox düşündüm, cinayətkar əməllərlə



məşğul olmadan yorulmuşdum, bezmişdim. Namusla yaşamağa səbrimiz çatmadığından insanları öldürür, talayırdıq. Məcbur idik. Çünki yaşamaq üçün bizə daha çox pul lazım idi…

Cinayətkarlar insanların təkcə varını, pulunu, mülkiyyətini talamır, onların illərlə çəkdiyi zəhmətinə, qazancına qəsd edir, yaxud buna mane olanda isə onların sağlamlığına zərbə vurur. Yadımdadır ki, bu barədə həmişə düşünürdüm, ancaq təhlükəli əməllərimdən əl çəkməyə tələsmirdim. Artıq razılıq vermişdim, pis və təhlükəli əməllərimdən əl çəkib dövlətin yanında olmaq, bütün cinayətkarları ifşa etmək, cəmiyyəti ictimai təhlükəli əməllərdən qorumağı başlıca vəzifə hesab edirdim.

Və beləcə işə başladım. Bunları yazmaqda məqsədim odur ki, bütün dünya bilsin – daha yaxşı yaşamaq üçün yol cinayətdən keçmir. İllərlə qazandığım təcrübə deyir ki, həmişə cəmiyyətin mənafeyi şəxsi maraqlardan üstün olmalıdır.

O dövrə qədər ki, polis üçün yalnız mən xəfiyyə kimi çalışmırdım, qorxurdum, ehtiyat edirdim. Çünki bilirdim ki, gördüyüm işlərin sonu yoxdur. Bu vaxt mənim Qafre adlı köməkçim vardı. O, məndən əvvəl xəfiyyəçiliyə cəlb edilsə də, ancaq onun iş prinsiplərini bəyənmədiyimdən bizim birgə fəaliyyətimiz çox çəkmədi. Mən öyrəndim ki, o, çox pis həyat tərzi keçirir, bu barədə Paris Polis İdarəsinin Agentura şöbəsinin rəisinə məlumat verdim. O yalan danışır, dövlətin maraqlarını öz bildiyi kimi yönəldir, cinayətkarlara məlumatlar ötürürdü. Onu işdən qovdular və Parisi tərk etmək göstərişi verildi. Polis xidmətində xüsusi qabiliyyətləri ilə seçilməyən, amma həbsxanalarda əldə etdikləri informasiyalardan yararlanmaqla kömək edən bir neçə şəxs də vardı. Onlara daimi məvacib verilmirdi və bu şəxslər yalnız üstü açılan cinayətlərə görə haqq alırdılar. Bu şəxslər azadlığa çıxan residivistlər arasından cəlb olunmuşdular. Həmçinin, oğrular varıydı ki, onlara müəyyən etdikləri fırıldaqçıları ələ verəcəkləri şərti qoyaraq, Parisdə işləmələrinə mane olmurdular. Başqa sözlə, onlara şərait yaradırdıq. Və mən polisi inandırmağa çalışdım ki, buna lüzum yoxdur.

*Ardı var.*

# Polisin Milli Qəhrəmanları

## Qəhrəmanlarımızı tanıyaq...



Güləliyev Oqtay Güləli oğlu 10 noyabr 1962-ci ildə Laçın rayonunun Xaçınyalı kəndində doğulub.

1982-ci ildə orta məktəbi bitirib və hərbi xidmətə çağırılıb. O, 1984-cü ildə Poltava Kooperativ İnstitutunun Bakı filialına daxil olub. 1989-cu ildə institutun iqtisadiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirərək, Laçın rayon Daxili İşlər Şöbəsində pasport bölməsində baş inspektor, sonra isə polis bölüyünün komandiri təyin edilib. Məlum "Daşaltı əməliyyatı" zamanı bölüyü mühasirəyə düşüb. O, 80 nəfər əsgərimizi təhlükəsiz zonaya çıxarmağa müvəffəq olub. Pircahan kəndi yaxınlığında yaralanan Oqtay hospitalda müalicə olunduqdan sonra yenidən cəbhəyə qayıdıb. 1992-ci il sentyabrın 19-da O.Güləliyev Laçın dəhlizində - qabaqca Hocaz kəndini, sonra isə "Nərgiz" yüksəkliyini ələ keçirmək planı hazırlayaraq, bölüyü ilə birlikdə düşmənin canlı və hərbi texniki qüvvəsini məhv edib. 11 oktyabr 1992-ci ildə Hoçaz yüksəkliyində gedən ağır döyüş onun son döyüşü olub. Sus və Qızılca kəndlərindən keçib yenidən Hocaz kəndinə dönərkən mühasirəyə düşüblər. O, yoldaşlarını çətin vəziyyətdən xilas edərək, onları təhlükəsiz yerə keçirsə də, özü şəhid olub. Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Ailəli idi. İki övladı yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin 11 may 1993-cü il tarixli 599 saylı Fərmanı ilə Güləliyev Oqtay Güləli oğlu (ölümündən sonra) Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Laçın şəhərində və Piçənis kəndində adına məktəb var.

# Uğurlu əməliyyatlar

Suraxanı RPİ 30-cu Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində iyulun 25-də gecə saatlarında paytaxt sakini olan bir nəfərin pulunu və mobil telefonunu quldurluq yolu ilə talamaqda şübhəli bilinən Bakı şəhər sakinləri E.Rəcəbov, N.Şahbazov, E.Əhədov və Hacıqabul rayon sakini F.Hüseynov müəyyən olunaraq saxlanılıblar.

◆◆◆

Sabunçu RPİ 15-ci Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində iyulun 21-də Kürdəxanı qəsəbəsindəki evlərin birindən 1100 manat pul, 3000 manat dəyərində mobil telefon, noutbuk, qızıl üzük və qol saatı oğurlamaqda şübhəli bilinən Mingəçevir şəhər sakini, əvvəllər də oğurluğa görə məhkum olunmuş R.Əzizov saxlanılıb. Araşdırmalarla onun Cinayət Məcəlləsinin 177-ci və 326-cı maddələri ilə axtarışda olması müəyyən olunub.

◆◆◆

Binəqədi RPİ 40-cı Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində müxtəlif vaxtlarda Çiçək və Hökməli qəsəbələrində 2 evdən 2600 manat dəyərində qızıl-zinət əşyaları, 600 manat dəyərində məişət əşyaları və elektrik naqili, Çiçək qəsəbəsində yerləşən bir binanın qazanxanasından 1600 manat dəyərində mühərrik hissələri, elektrik naqili, təmir alətləri, 2 binanın zirzəmisindən 4250 manat dəyərində 4 ədəd velosiped, 2 ədəd monitor, müşahidə kamerası, istilik sistemləri, təmir alətləri və elektrik naqili oğurlamaqda şübhəli bilinən İmişli rayon sakini, əvvəllər narkotiklərlə əlaqəli cinayətə görə məhkum olunmuş Ş.Məmmədov müəyyən olunaraq saxlanılıb.

◆◆◆

Səbail RPİ 41-ci Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində rayon ərazisində "Mercedes" markalı bir avtomobilin salonunda olan çantadan 3100 dollar, 1500 lirə və 400 lari oğurlamaqda şübhəli bilinən Sumqayıt şəhər sakini əvvəllər də oğurluğa görə məhkum olunmuş N.Ağayev müəyyən olunaraq saxlanılıb.

◆◆◆

İyulun 18-də Quba rayonunda yaşayan yataq xəstəsi olan 67 yaşlı qadının qızıl sırğa və üzüyünün soyğunçuluq yolu ilə talanması barədə polisə məlumat daxil olub.

Quba Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində soyğunçuluq əməlini törətməkdə şübhəli bilinən 2-ci Nügədi kənd sakini, əvvəllər məhkum olunmuş Ə.Məstanov müəyyən olunaraq saxlanılıb.

◆◆◆

İyulun 17-də Xəzər rayonunun Buzovna qəsəbəsi ərazisində qəsəbə sakini olan bir qadının qızıl boyunbağısının soyğunçuluq yolu ilə talanması barədə polisə məlumat daxil olub.

Soyğunçuluq əməlini törətməkdə şübhəli bilinən Bakı şəhər sakini M.Əliyev Xəzər RPİ 2-ci Polis Şöbəsinin əməkdaşları tərəfindən saxlanılıb.

# Daxili İşlər Nazirliyi müsabiqə elan edir

## Ali təhsilli və kompüter ilə işləmək bacarığı olanlara üstünlük veriləcək

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, nazirliyin müvafiq qurumlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 27-dək, boyu 180 santimetr və ondan hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyini, yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətdə aparılacağı baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi, fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş qaydada yoxlanılacaqdır.

Ali təhsilli və kompüter avadanlıqları ilə işləmək qabiliyyətinə malik vətəndaşlara üstünlük veriləcəkdir.

İştirak etmək istəyən şəxslər mia.gov.az/az/vacancies/3/ ünvanında yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə bki@mia.gov.az ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**
**(012)-590-94-12;**
**(012)-590-93-45.**
**(012)-590-92-37;**
**(012)-590-97-52;**

## Gənc qadınlar operator vəzifələrinə dəvət olunur

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi operator vəzifələri üzrə müvafiq qurumlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə yaşı 25-dən 30-dək, boyu 160 santimetrdən yuxarı olan, Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrini bitirmiş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən, Bakı şəhərində daimi qeydiyyatda olan və yaşayan Azərbaycan Respublikasının qadın cinsli vətəndaşları iştirak edə bilərlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyi baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, fiziki hazırlıqları və bilik səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılaraq, kompüter və rabitə avadanlıqları ilə işləmək, analitik düşünmə və araşdırma, düzgün qərar vermək və problem həll etmək qabiliyyətlərinə malik, komandada işləmək bacarıqları və qrammatik bilikləri yüksək səviyyədə olan, məsuliyyətli, diqqətli və inkişafa meyilli, ən azı xarici dillərdən birini sərbəst bilən və ailəli şəxslərə üstünlük veriləcəkdir.

Müsabiqə qaliblərinə Azərbaycan Respublikası DİN-in kadrları tərkibinə daxil edilərək müvafiq xüsusi rütbə verilməklə 500-800 manat aylıq təminat xərcliyi ödəniləcək, habelə qanunvericiliklə müəyyən olunmuş qaydada onların daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaqdır.

İştirak etmək istəyən şəxslər 2023-cü ilin iyul ayının 17-dən avqust ayının 17-dək Daxili İşlər Nazirliyinin internet saytında /www.mia.gov.az/ yerləşdirilmiş elektron ərizə formasını və anket məlumatlarını şəxsən dolduraraq elektron poçt vasitəsilə DİN-in Baş Kadrlar İdarəsinin **bki@mia.gov.az** elektron ünvanına göndərməlidirlər.

**Əlavə məlumat üçün əlaqə telefonları:**
**(012) 590-80-63**
**80-63 daxili**
**(012) 590-80-93**
**80-93 daxili**

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10390
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Çapa imzalanmışdır 20:00
Qiyməti 40 qəpik